# Maarifləndirici treninqlər







68 saylı Sabirabad-Şirvan Seçki Dairəsinin dairə seçki komissiyasında aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir. Treninqlər gündə iki dəfə olmaqla, beşgünlük nəzərdə tutulub.

Dairə Seçki Komissiyasından bildirilib ki, treninqlər seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri cəlb olunmaqla, Mərkəzi Seçki Komissiyası tərəfindən tərtib edilmiş xüsusi proqram əsasında aparılır. Tədris edilən məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Qeyd edək ki, sözügedən dairə üzrə 59 seçki məntəqəsi var, onlardan 55 məntəqə Sabirabad rayonunda, 4 məntəqə isə Şirvan ərazisində yerləşir. 48 min 443 nəfər seçici Sabirabad, 3 min 859 nəfər isə Şirvan üzrə olmaqla, ümumilikdə, seçki dairəsində 52 min 302 nəfər seçici qeydə alınıb ki, onlardan 26 nəfəri ilk dəfə səsvermə hüququna malik seçicilərdir. Seçki dairəsi üzrə 205 namizəd qeydə alınıb.

❖ ❖ ❖

Yanvarın 29-na təyin olunmuş bələdiyyə seçkiləri ilə əlaqədar cənub bölgəsində maarifləndirici treninqlər davam edir.

77 saylı Lənkəran şəhər, 79 saylı Astara, 71 saylı Cəlilabad, 69 saylı Biləsuvar, 75 saylı Yardımlı-Masallı, 74 saylı Masallı seçki dairələrində şəhər, qəsəbə və kənd məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər təşkil olunub.

Təlimlər gün ərzində iki dəfə olmaqla, məntəqə seçki komissiyası üzvlərinin iştirakı ilə keçirilir.

Treninqlərdə səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin vəzifələri, seçki günü prosedurları və müstəsna hallar, səsvermə məntəqəsinin açılması, seçki qutularının hazırlanması, səslərin hesablanması, seçki bülletenlərinin təsnifatı və yekun protokolun doldurulması və digər məsələlər barədə məlumat verilib.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunub.

❖ ❖ ❖

84 saylı Füzuli Seçki Dairəsinin dairə seçki komissiyasında aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir. 19, 21, 23 yanvar tarixlərini əhatə etməklə hər gün iki treninqin keçirilməsi nəzərdə tutulub.

Dairə seçki komissiyasından bildirilib ki, treninqlər seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri cəlb olunmaqla, Mərkəzi Seçki Komissiyası tərəfindən tərtib edilmiş xüsusi proqram əsasında aparılır. Tədris edilən məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Qeyd edək ki, sözügedən dairə üzrə 78 seçki məntəqəsi var, bələdiyyə seçkiləri 47 seçki məntəqəsi üzrə keçiriləcək. Ümumilikdə 149 namizəd qeydə alınıb.

❖ ❖ ❖

15 saylı Yasamal birinci seçki dairəsi üzrə ümumilikdə 50 min 93 seçici qeydiyyata alınıb. Onlar 38 məntəqədə səs verəcəklər. Seçicilərdən 365 nəfəri ilk dəfə səsvermədə iştirak edəcək. Yasamal rayonu üzrə bələdiyyə seçkilərində 37 nəfər namizədliyini irəli sürüb.

Bunu 15 saylı Yasamal birinci seçki dairəsinin dairə seçki komissiyasının sədri Cumar İsayev deyib.

C.İsayev bildirib ki, dairə bələdiyyə seçkilərinin uğurlu keçirilməsi üçün tam hazırdır: "Məntəqələr lazımi vəsait və avadanlıqlarla tam təmin olunub. Hazırda məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlər keçirilir. Bu gündən başlayan və üç gün davam edəcək treninqlərdə 224 nəfərin iştirakı gözlənilir".

Qeyd edək ki, treninqlərdə səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki günü prosedurları, səsvermə məntəqəsinin açılması, seçki materialları və avadanlığının, seçki qutularının hazırlanması, əlavə seçici siyahıları, seçki otağının təşkili qaydaları, müəyyənləşdirilməmiş seçki bülletenləri, hüquq-mühafizə orqanlarına müraciət edilməsi zəruri olan hallar, səsvermə saatlarında tədbirlər, səsvermə prosesində müstəsna hallar, daşınan və daşınmaz seçki qutuları ilə səsvermə prosesi, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə məlumat verilir.

Qeyd edək ki, treninqlər 16 saylı Yasamal ikinci və 17 saylı Yasamal üçüncü seçki dairələrinin dairə seçki komissiyalarında da təşkil olunur.

❖ ❖ ❖

Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar 19 saylı Nərimanov birinci seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün növbəti treninq təşkil olunub. 4 gün davam edəcək təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığını, peşəkarlığını artırmaqdır.

Treninqlərdə 37 məntəqədən 185 nəfərin iştirakı nəzərdə tutulub.

Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlim kursunda iştirak edən Bəhruz Cabbarlı və Hürü Kərimova aparırlar.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və sair ilə bağlı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilir.

Dairə seçki komissiyasının sədri Azad Nəbiyev seçkilərə hazırlıq işlərinin uğurla davam etdiyini, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şəraitin yaradıldığını deyib. O bildirib ki, məntəqələr seçki kabinələri, təşviqat, məlumat, seçici siyahısı lövhələri, generatorlar, elektrik fənərləri, daşınmaz və daşınan seçki qutuları, qeydiyyat dəftərləri, Seçki Məcəlləsi, bələdiyyə seçkiləri ilə bağlı təlimatlarla təmin olunub. Seçki məntəqələrinin 11-də veb-kamera quraşdırılıb. Sağlamlıq imkanları məhdud seçicilər də diqqətdən kənarda saxlanılmayıb. Belə ki, həmin qəbildən olan vətəndaşlar üçün məntəqələrdə panduslar quraşdırılıb.

"Hazırda dairədəki seçki məntəqələrinin sayı 37, seçicilərin sayı isə 48 mindən çoxdur. Dairə üzrə 4 nəfərin 100-dən yuxarı yaşı var. Dairədə seçicilərin 893 nəfəri ilk dəfə səs verəcək. Onlar 18 yaşı tamam olan seçicilərdir", - deyə A.Nəbiyev qeyd edib.

Qeyd edək ki, treninqlər həmçinin 18 saylı Nərimanov-Nizami-Binəqədi, 20 saylı Nərimanov ikinci seçki dairələrinin dairə seçki komissiyalarında da keçirilir.





*AZƏRTAC*

Azərbaycan. - 2025.- 23 yanvar (№ 14).- S.8.